# GÖYƏRÇİN

İSSN-0207-4710
2011-ci il
2





Hekayə



Şeir



Nağıl

Nağıl vaxtı

# KİÇİK SİÇANIN BÖYÜK SƏRGÜZƏŞTLƏRİ

*(Eskimos nağılı)*

Bir dəfə siçan balası səyahətə çıxmaq istədi. Günəşli bir gündə nənəsi onu yola saldı. Siçan balası yola düşdü. Az getdi, üz getdi, dərə-təpə düz getdi, axır ki, onun qarşısına böyük bir göl çıxdı. Siçan balası diqqətlə dörd tərəfə baxdı, gözlərinə heç kəs dəymədi. Lovğa-lovğa dedi ki, qarşıma çıxan olsaydı, ona öz gücümü göstərərdim.

Siçan balası özünü dəryaya vurdu. Bir göz qırpımında gölü üzüb keçdi, suyunu çırpa-çırpa düşündü:

-Hətta delfin mənim qədər üzsəydi, indi yorulub əldən düşmüşdü…

Siçan balasının üzüb keçdiyi göl isə əslində yağış ilə dolmuş at izi idi.

Siçan balası başqa bir cığırla öz yolunu davam etdirdi. Qarşısına uca, upuca bir dağ çıxdı. Siçan balası dörd tərəfi diqqətlə nəzərdən keçirib deyindi:

- Heyf ki, ətrafda heç kəs yoxdu. Yoxsa mən marallara göstərərdim ki, dağın üstündən necə tullanmaq olar.

Siçan balası bircə sıçrayışla dağın bu üzündən o üzünə tullandı.

Əslində bu dağ yox, bir ovuc qurumuş ot topası idi.

Siçan balası öz yoluna davam elədi. Qarşısına iki ayı rast gəldi. Onlar bir-biri ilə ölüm-dirim savaşına çıxmışdılar.

Siçan balası onların üstünə qışqırdı:





-Dayanın, yoxsa bir-birinizi öldürmək fikriniz var?!

Ayılar onu heç saya da salmadılar. Qəzəblənən siçan balası özünü onların arasına atdı, quyruğu ilə hərəsinə bir zərbə vurub onları ayırdı. Lovğa-lovğa dedi:

-Mən çox güclü və qüvvətliyəm. Sözümə baxmasanız, ikinizi də öldürəcəyəm.

Ayıların hərəsi bir tərəfə qaçıb getdi. Əslində onlar ayı yox, bir-biri ilə savaşan iki böcək idi.

Siçan balası özündən razı halda dedi:

-Bugünkü səyahətim kifayətdir. Evə qayıtmaq vaxtıdır.

Siçan balası evə qayıtdı və başına gələn sərgüzəştləri öz nənəsinə danışdı.



-Eh, nənəcan, heç bilirsən necə qəhramanlıqlar göstərmişəm?!

Nənəsi ah çəkib dedi:

-Axmaq siçanciyəz, hələ sənin başına çox işlər gələcək…

Rəssam
Aytən

*Tərcümə edib işləyəni:*
*R.Y. ƏLİYEV*